# NƏCƏFOV FƏXRƏDDİN VİLAYƏDDİN OĞLU



1967-ci il mart ayının 31-də Bakı şəhərində doğulmuşdur. 1984-cü ildə Nəsimi rayonundakı 19 saylı orta məktəbi bitirdikdən sonra Bakı Çini Qablar Zavodunda əmək fəaliyyətinə başlamışdır.Bir ildən sonra Fəxrəddin hərbi xidmətə çağırılır. O, 1987-ci ildə Arxangelsk vilayətində ordudan tərxis olunub, Vətənə qayıdır, DİN-nin Yanğından Mühafizə İdarəsində işə qəbul olunur. 1988-ci ildə nazirliyin təqdimatı ilə Xarkov Yanğından Mühafizə Ali Hərbi məktəbinə göndərilir. 1990-cı ildə təhsilini başa vuran Fəxrəddin Bakıda 14 saylı Yanğından Mühafizə İdarəsində qarovul rəisi vəzifəsinə təyin edilir. 1991-ci ildə, Azərbaycana qarşı Ermənistan Silahlı qüvvələrinin hücumlarının şiddətləndiyi dövrdə F.Nəcəfov könüllü olaraq Qarabağ cəbhəsinə yollanır. Fəxrəddin ilk döyüşə Goranboy rayonu ərazisində başlayır. 1992-ci ildə onu Ağdam cəbhəsində döyüşən hissələrin birinə bölük komandiri təyin edirlər. Həmin vaxtlarda Ağdamın Canyataq və Gülyataq kəndlərində ağır döyüşlər gedirdi. Onun bölüyünə düşmən ərazisinə düşən təyyarəçimizi xilas etmək tapşırığı verilmişdi. F.Nəcəfov təyyarəçini xilas edərkən Canyataq kəndində öz dəstəsi ilə mühasirəyə düşür. Bir neçə gün qızğın döyüş gedir. Nəhayət, bölük mühasirə həlqəsini yara bilir. Həmin gün F.Nəcəfov bir neçə yerindən ağır yaralanır. O, bir müddət hospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdır. Bu əməliyyatı uğurla yerinə yetirdiyinə görə Fəxrəddinə pul mükafatı və baş leytenant rütbəsi verildi. 1992-ci il sentyabrın 4-də Ağdərənin Çıldıran kəndi istiqamətində gedən döyüşdə düşməni ağır itkiyə məruz qoyan cəsur komandir qəhrəmancasına həlak olur. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Fəxrəddin Nəcəfovun şəxsi döyüş hesabında düşmənin bir ədəd T-72 tankının, iki PDM-nin, onlarca əsgərin məhv edildiyi yazılıb. Subay idi. Azərbaycan Respublikası prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə Nəcəfov Fəxrəddin Vəliyəddin oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Nəsimi rayonundakı 266 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Məktəbin həyətində büstü qoyulmuşdur.